İCBARİ
TİBBİ SIĞORTA

# XİDMƏTLƏR ZƏRFİ



# Xidmətlər Zərfi nədir?

İcbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlərin toplusudur.

**Xidmətlər Zərfindən kimlər istifadə edə bilər:**

- Azərbaycan Respublikasının vətəndaşları
- Azərbaycan Respublikasında qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə ali komissarının ölkəmizdəki nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər

## Xidmətlər Zərfindəki tibbi xidmətlərə daxildir

- İlkin tibbi-sanitariya yardımı
- Təcili və təxirəsalınmaz tibbi xidmət
- İxtisaslaşdırılmış ambulator tibbi xidmət
- Fizioterapiya xidməti
- Laboratoriya xidməti
- İnvaziv radioloji xidmətlər (angioqrafiya)
- Stasionar cərrahi tibbi xidmətlər
- Stasionar terapevtik tibbi xidmətlər

Laborator analizlər, instrumental diaqnostik və radioloji xidmətlər, həmçinin fizioterapiya xidməti həkim təyinatına əsasən həyata keçirilir.

Xidmətlər Zərfi ilə tanış olmaq üçün **QR KODU** oxudun

# İlkin tibbi-sanitariya yardımı

İlkin tibbi-sanitariya yardımı ailə həkimi tərəfindən göstərilir.

- ailə həkiminin (sahə-terapevti, sahə-pediatrı) müayinəsi
- xəstəliklərin erkən aşkarlanması və profilaktikası
- ixtisaslaşdırılmış tibbi xidmət tələb etməyən vəziyyətlərin, xəstəliklərin diaqnostikası və müalicəsi
- ixtisaslaşdırılmış tibbi xidmət tələb edildiyi halda sığortaolunanların* müayinə və müalicəsi üçün ixtisaslı həkimə göndərişlərin verilməsi
- hamilə qadınlara doğuşaqədər nəzarət və onların müşahidəsi
- hamiləlik dövründə, doğuşdan sonrakı dövrdə zahı qadınların müşahidəsi və tələb olunduqda müayinə və müalicə üçün ixtisaslı həkimə göndərişlərin verilməsi
- yenidoğulmuşların müşahidəsi və onlara nəzarət
- uşaqların icbari dispanserizasiyası
- uşaqların Milli Peyvənd Təqviminə əsasən immunizasiyası
- tibbi-profilaktik tədbirlərin görülməsi və tibbi-sanitar maarifləndirmə işinin aparılması

* Sığortaolunan - sağlamlığı icbari qaydada sığortalanmış fiziki şəxs

# Təcili və təxirəsalınmaz tibbi xidmət

Ambulator və stasionar şəraitdə təcili və təxirəsalınmaz tibbi yardım göndəriş vərəqəsi olmadan dərhal göstərilir.
Ambulans xidmətindən yararlanmaq üçün vətəndaş **103** nömrəsinə zəng etməlidir.

- ambulans xidməti
- ambulator və stasionar şəraitdə təcili və təxirəsalınmaz tibbi yardım xidmətləri

## İxtisaslaşdırılmış ambulator tibbi xidmət

İxtisaslaşdırılmış ambulator tibbi xidmət sığortaolunana həkim göndərişi və ya pasiyentin birbaşa Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan tibb müəssisəsinə müraciəti əsasında göstərilir.

- ixtisaslı həkimin müayinəsi
- müvafiq laborator və instrumental müayinələr
- radioloji xidmətlər (rentgen, USM, KT, MRT və s.)
- müalicənin təyini və müalicə ilə bağlı məsləhətlərin verilməsi
- tələb olunduqda sığortaolunanın dispanser müşahidəyə götürülməsi
- fizioterapiya və müalicəvi masaj xidməti



# Fizioterapiya xidməti

Fizioterapiya xidmətlərinə sığorta limiti* tətbiq olunur. İl ərzində hər bir fizioterapiya xidməti üzrə 10 prosedurdan artıq olmamaq şərtilə həkimin göndərişi əsasında sığortaolunana xidmət göstərilir.

- elektroforez
- fonoforez
- müalicəvi masaj
- maqnit terapiya və digər xidmətlər

* Sığorta limiti - Xidmətlər Zərfində nəzərdə tutulduğu hallarda sığortaolunana təqvim ili ərzində göstərilən tibbi xidmətlərin say həddi

## Laboratoriya xidməti

- klinik analizlər
- biokimyəvi analizlər
- bakterioloji analizlər
- immunoloji analizlər
- infeksiyaların təyini
- digər xidmətlər

## İnvaziv radioloji xidmətlər

- angioqrafiya



# Stasionar cərrahi tibbi xidmətlər

Stasionar cərrahi tibbi xidmət ixtisaslı həkimin göndərişi əsasında və ya təcili və təxirəsalınmaz tibbi yardımın müşayiət vərəqəsi əsasında sığortaolunana göstərilir.

- Baş-beyində aparılan əməliyyatlar
- Ürək-damar cərrahiyyəsi
- Göz əməliyyatları
- Mədə-bağırsaq əməliyyatları
- Uroloji əməliyyatlar
- Sinir sistemində aparılan əməliyyatlar
- Ortopedik və travmatoloji əməliyyatlar
- Ginekoloji əməliyyatlar
- Koxlear protez cihazının implantasiyası
- Endoprotezləşdirmə əməliyyatı



Əlillik və ölüm riski olan xəstəliklərin müalicəsi, eləcə də dəyəri yüksək olan əməliyyatlar Xidmətlər Zərfinə daxildir.



# Stasionar terapevtik tibbi xidmətlər

Stasionar terapevtik tibbi xidmət cərrahi müalicəyə ehtiyac olmadığı zaman sığortaolunana göstərilir.
Bu xidmət ixtisaslı həkimin müşahidə və müalicəsi əsasında həyata keçirilir.

- Baş-beynin və onurğa beyninin xəstəlikləri və travmaları
- Ürək-damar xəstəlikləri
- Ağciyər xəstəlikləri
- Həzm sistemi orqanlarının xəstəlikləri
- Sinir sisteminin xəstəlikləri
- Göz xəstəlikləri
- Uroloji xəstəliklər
- Ginekoloji xəstəliklər
- Anadangəlmə inkişaf qüsurları
- Müxtəlif zədələr və zəhərlənmələr



Stasionar terapevtik tibbi xidmət Xidmətlər Zərfi çərçivəsində müəyyən edilmiş diaqnoz və xəstəlik qruplarına uyğun olaraq sığortaolunana göstərilir.

## Xidmətlər Zərfinə daxil olan tibbi arayışlar

18 yaşa qədər uşaqların sağlamlıq vəziyyətinin cari müayinəsi

Hərbi xidmətə çağırılanların tibbi müayinəsi

## Xidmətlər Zərfinə daxil olmayan tibbi arayışlar

Sağlamlıq haqqında iş yerinə təqdim edilən arayış

Sürücülük vəsiqəsi üçün tələb olunan sağlamlıq haqqında arayış

## Xidmətlər Zərfinə daxil olan dərman vasitələri və tibbi sərf

- Təcili və təxirəsalınmaz tibbi yardım zamanı istifadə olunan dərman və tibbi sərf
- Stasionar tibbi xidmət zamanı istifadə olunan dərman və tibbi sərf
- Ambulator şəraitdə tibb müəssisəsində vətəndaşa göstərilən bir sıra tibbi xidmətlərdə istifadə edilən anesteziya, dərman və tibbi sərf

Ambulator müalicə üçün həkim tərəfindən resept əsasında təyin olunan dərman vasitələri təminata daxil deyil.

Xəstəxanada yatış günlərinə uyğun olaraq pasiyentin və 12 yaşa qədər uşağı müşayiət edən şəxsin qidalanma xərcləri icbari tibbi sığorta təminatına daxildir.

# Tibbi xidmətlərin göstərilməsi hansı müddətdə həyata keçirilir

## Sığortaolunanlara tibbi yardımın göstərilməsi aşağıdakı gözləmə müddəti ərzində həyata keçirilir

**14** gündən gec olmayaraq

ixtisaslaşdırılmış ambulator xidmət üçün göndəriş verildiyi tarixdən 14 gündən gec olmayaraq

**14** gündən gec olmayaraq

instrumental diaqnostik və laborator müayinələr üçün göndəriş verildiyi tarixdən 14 gündən gec olmayaraq

**20** gündən gec olmayaraq

koxlear protez cihazı və endoprotezin yerləşdirilməsi istisna olmaqla, planlı stasionar tibbi yardım üçün sığortaolunana göndəriş verildiyi tarixdən 20 gündən gec olmayaraq

# Xidmətlər Zərfi üzrə
# elektron axtarış sistemi

Vətəndaşlar onlara lazım olan tibbi xidmətin Xidmətlər Zərfində mövcudluğunu elektron axtarış sistemi vasitəsi ilə yoxlaya bilərlər.

- ☑ Axtarışa verilən açar söz iki hərfdən çox olmalıdır
- ☑ Sorğu söz birləşməsi üzrə deyil, bir açar söz üzrə axtarışa verilməlidir
- ☑ Lazım olan tibbi xidmətin adı dəqiq qeyd olunmalıdır




Xidmətlər Zərfi üzrə elektron axtarış sistemindən istifadəyə dair video təlimatla tanış olmaq üçün **QR KODU** oxudun

# Xidmətlər Zərfi üzrə elektron axtarış sistemi

www.its.gov.az

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

1542 ÇAĞRI MƏRKƏZİ

## Cərrahi tibbi xidmətlər

Tibbi xidmətin adı

Kateqoriya seçin

| Sıra № | Xəstəliklərin Beynəlxalq təsnifatının 9-cu baxışı üzrə prosedur/ Xəstəlik kodu | Xəstəliklərin Beynəlxalq təsnifatının 10-cu baxışı üzrə prosedur/ Xəstəlik kodu | Tibbi xidmətin adı | Qeyd | Qiyməti ? |
|---|---|---|---|---|---|
| 2.6.1 | | | Tək damarda aparılan prosedura (Əlavə damar müdaxiləsi) | *1.*2.*3.**4.*5.*6 | 300 ₼ |
| 2.6.2 | | | Bir vaskulyar stentin taxılması (Hər növbəti stent dərman örtüklü və ya sadə metal olmasından asılı olmayaraq) | *1.*2.*3.**4.*5.*6 | 600 ₼ |
| 2.6.3 | | | Ekstrakranial damarın (-ların) perkutan angioplastikası (vertebral-birinci stentin taxılması ilə) | *1.*2.*3.**4.*5.*6 | 1500 ₼ |
| 2.6.4 | | | İntrakranial damarın (-ların) perkutan angioplastikası (bazilyar arteriya, vertebral arteriyanın intrakranial hissəsi, birinci stentin taxılması ilə) | *1.*2.*3.**4.*5.*6 | 3000 ₼ |
| 2.6.5 | | | Karotid arteriyaya stentin (-lərin) perkutan taxılması (birinci stentin taxılması ilə birlikdə) | *1.*2.*3.**4.*5.*6 | 1500 ₼ |
| 2.6.6 | | | Perkutan translyuminat koronar anqioplastika (ilk stent tətbiqi dərman örtüklü və ya sadə metal stent olmasından asılı olmayaraq) | *1.*2.*3.**4.*5.*6 | 1500 ₼ |
| 2.6.7 | | | Sisternal punksiya | *1.*2.*3.*4.*5.*6 | 100 ₼ |
| 2.6.8 | | | Digər kraniotomiya (Dekompressiv trepanasiya) | *1.*2.*3.*4.*5.*6 | 2200 ₼ |
| 2.6.9 | | | Talamus üzərində aparılan əməliyyatlar | *1.*2.*3.*4.*5.*6 | 4[illegible]00 ₼ |

Burada tibbi xidmətlərin adı ilə yanaşı, xidmət müqabilində Agentlik tərəfindən tibb müəssisəsinə ödənilən məbləğ də qeyd olunur.




# Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlər hansı tibb müəssisələrində göstərilir?

Bu xidmətlər TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində göstərilir. Tibbi xidmətə ehtiyac yarandığı təqdirdə TƏBİB-in tabeliyindəki istənilən dövlət tibb müəssisəsinə müraciət etmək kifayətdir. Həmin tibb müəssisələrində xidmətin göstərilməsi mümkün olmadıqda Agentliklə müqaviləli özəl tibb müəssisələrində göndəriş* əsasında xidmət göstərilir.

* Göndəriş TƏBİB-in tabeliyindəki tibb müəssisəsi tərəfindən verilir.

© Bakı 2022